**UOT 332**

***Xəyyam Natiq oğlu CAVADZADƏ,***
***iqtisad üzrə fəlsəfə doktoru, dosent***
***Azərbaycan Dövlət İqtisad Universiteti***
***xayyam1984@mail.ru***
**https://doi.org/10.30546/4.71.73001.2024.004.021**

# AZƏRBAYCAN RESPUBLİKASINDA AQRAR SAHƏYƏ DÖVLƏT DƏSTƏYİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

***Xülasə***

**Tədqiqatın məqsədi –** aqrar sahəyə dövlət dəstəyinin mövcud vəziyyətinin araşdırılması, onun əsas istiqamətlərinin və bu istiqamətdə mövcud problemlərin müəyyən edilməsidir.

**Tədqiqatın metodologiyası –** tədqiqat zamanı analiz, sistemli yanaşma, müqayisəli təhlil, ümumiləşdirmə metodlarından istifadə edilmişdir.

**Tədqiqatın əhəmiyyəti –** aqrar sahəyə dövlət dəstəyinin artırılması və bu sahədə mövcud problemlərin aradan qaldırılması rəqabətqabiliyyətli məhsul istehsalını təmin edə bilər.

**Tədqiqatın nəticələri –** tədqiqatda əldə edilən nəticələr aqrar sahədə məhsul istehsalçılarının məlumatlılığını artırmağa, onların dövlət dəstəyindən yararlanmasının əhəmiyyətini təbliğ etməyə və nəticədə məhsul istehsalının artırılmasında stimul yarada bilər.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi –** aqrar sahəyə dövlət dəstəyinin əsas istiqamətləri kompleks şəkildə təhlil edilmiş və mövcud problemlər müəyyən edilərək konkret töhfələr verilmiş, dövlət dəstəyinin daha da inkişaf etdirilməsi yolları araşdırılmış və bu istiqamətdə təkliflər irəli sürülmüşdür.

***Açar sözlər: aqrar islahatlar, azad rəqabət mühiti, aqrar - ərzaq bazarı, aqrar sahibkarlıq, dövlət dəstəyi.***

## *Giriş*

Ölkə əhalisinin ərzaq məhsulları ilə təminatı dövlətin qarşısında duran strateji əhəmiyyətli istiqamətlərdən biri və ən önəmlisidir. Aqrar sahənin bu problemin həllində özünəməxsus əhəmiyyəti vardır. Odur ki, bu sahədə mövcud potensialdan səmərəli istifadə edilməsi və mütərəqqi struktur üstünlükləri tətbiq edilməklə dövlət səviyyəsində tədbirlərin həyata keçirilməsi zəruridir.

Ölkəmizdə aqrar sahəyə dövlət dəstəyini həyata keçirən aqrar siyasət kənd təsərrüfatı məhsullarının istehsalına əlverişli zəmin yaratmaqla yanaşı, zəruri resursların qiymətlərinin də tənzimlənməsinə xidmət göstərir. Aqrar sahədə kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə təminatının yaxşılaşdırılması, istehsal olunan məhsulların emalının həyata keçirilməsi, aqrar-ərzaq məhsullarının çeşidinin və keyfiyyətinin artırılması yollarının araşdırılması məsələləri ölkəmizin aqrar elmi qarşısında duran mühüm vəzifələrdəndir. Hazırkı dövrdə qarşıda duran əsas vəzifələrdən biri iqtisadiyyatın müxtəlif sahələri arasında tarazlığı təmin etmək, əhalinin ərzaqla təminatında önəmli əhəmiyyət kəsb edən aqrar sahəni inkişaf etdirməkdir. Həmçinin emal sənayesinin kənd təsərrüfatı xammalına olan tələbatını ödəməklə, aqrar-ərzaq məhsullarının istehsalını artırmaq və ixracyönümlü ərzaq məhsulları istehsal etməkdir.

1993-cü ildə xalqın təkidi ilə Ümummilli lider Heydər Əliyevin yenidən ölkədə rəhbərliyə gəlməsi bir çox sahələrdə olduğu kimi, aqrar sahədə də mühüm islahatların həyata keçirilməsinə rəvac verdi. Hazırda Ulu öndərin başladığı dövlət quruculuğu və həyata keçirdiyi inkişaf strategiyası onun layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir.

Respublikamızda Prezident İlham Əliyevin rəhbərliyi altında regionların sosial – iqtisadi inkişaf Proqramlarının, İqtisadi İnkişaf Konsepsiyalarının, müxtəlif istiqamətdə həyata keçirilən dövlət proqramları və digər strateji xarakterli sənədlərin hazırlanması və uğurla həyata keçirilməsi

hesabına ölkəmiz hərtərəfli inkişaf mərhələsinə qədəm qoymuşdur.

Qeyd edilən sənədlərin qəbulu və tətbiqi aqrar sahəyə maliyyə dəstəyinin göstərilməsinə, sahibkarlıq subyektlərinin inkişafına, iinfrastruktur layihələrinin regionlarda həyata keçirilməsinə, əhalinin istehlakında və məhsulların çeşidində mütərəqqi dəyişikliklərlə yanaşı, yerli məhsulların xüsusi çəkisinin artmasına səbəb olmuşdur.

**Aqrar sahədə aparılan islahatlar**

Respublikamızda aqrar sahədə aparılan islahatlar nəticəsində mülkiyyət və istehsal münasibətləri əsaslı şəkildə yenilənmiş, bu sahə məhsullarının istehsal prosesinə innovativ texnika və texnologiyaların tətbiqi istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir.

G.Ə.Əhmədovun qeyd etdiyi kimi, aqrar islahatların aparıcı istiqamətlərini hüquqi - normativ bazanın yaradılması təşkil edir. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında aqrar islahatların hüquqi bazasının formalaşdırılması 1995-1997-ci illərdə əsasən başa çatdırılmışdır [6, s.13-18].

Aqrar islahatların aparılması prosesində ölkəmiz nüfuzlu beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlıq edir və beynəlxalq təcrübənin mütərəqqi üsullarından geniş istifadə olunur. Dünya Bankının xətti ilə ölkənin bəzi regionlarında nümunəvi özəl kənd təsərrüfatı müəssisələri yaradılması layihəsi müvəffəqiyyətlə başa çatdırılmış, yeni layihələrin tətbiqi üzrə danışıqlar aparılır.

İqtisadiyyatımızın aparıcı sahələrindən olan aqrar sahədə yeni infrastrukturların yaradılması, müasir dünya standartlarına cavab verən müəssisələrin qurulması qarşıda duran mühüm vəzifələrdəndir. Aqrar sahənin inkişafı ölkənin regionlarında olan əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə edilməsindən bilavasitə asılıdır. Odur ki, mövcud potensialdan elmi əsaslarla istifadə edilməsi kənd əhalisinin işlə təminatının yüksəldilməsinə, yoxsulluq səviyyəsinin azaldılmasına, xeyli sayda yeni iş yerlərinin açılmasına şərait yaradardı. Məhz bu baxımdan aqrar sahədə islahatların həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

İqtisadçı alim B.X.Ataşovun qeyd etdiyi kimi, ölkənin əksər regionlarında kəndin sosial həyat strukturlarından geridə qalması dövlətin bu sahəyə xüsusi diqqət yetirməsini zəruri etmişdir. Məhz bu baxımdan ölkəmizdə regionların sosial - iqtisadi inkişaf proqramlarının həyata keçirilməsi yeganə çıxış yolumuzdur. Kənddə əhalinin məşğulluğunun yüksəldilməsi və gəlirlərinin artırılması hesabına sosial həyat strukturlarının yenilənməsini və kənddə həyat tərzinin yaxşılaşmasını təmin etmək olar [5, s.83-86].

Ölkəmizdə 2016-cı ildə “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji yol Xəritəsi” təsdiq edilmiş və ötən dövr ərzində uğurla həyata keçirilməkdədir. Yol Xəritəsində kənd təsərrüfatı məhsulları istehsalının artırılması hesabına emal sənayesinin inkişafı, koordinasiya və qiymətləndirilmə məsələləri, bu sahənin inkişafına istiqamətlənmiş müasir layihələrin hazırlanması və həyata keçirilməsi, fövqəladə vəziyyətlər üçün xüsusi tədbirlər planının müəyyən edilməsi məsələləri nəzərdə tutulmuşdır. [4]

Dövlətin iqtisadi siyasətində kənd təsərrüfatının inkişaf etdirilməsi əsas amil hesab edilir. Bu istiqamətdə həyata keçirilən çoxsaylı tədbirlər, o cümlədən “Aqrar sahədə islahatların sürətləndirilməsinə dair” ölkə Prezidentinin 22 mart 1999-cu il tarixli Fərmanı kənd təsərrüfatında yaranmış problemlərin təxirəsalınmaz həllinə yönəldilmişdir. [1]

Ölkə iqtisadiyyatının tələbatlar sistemi ölkənin iqtisadi inkişaf modelini müəyyənləşdirməklə, prioritet istiqamətlərin qəbul ediməsində xüsusi əhəmiyyətə malikdir. Tələbatlar sistemi mövcud ehtiyatlara uyğun olaraq əsaslandırılmalı və iqtisadiyyatın inkişaf etdirilməsində təkcə kəmiyyəti deyil, keyfiyyəti də nəzərə çatdırmalıdır.

Respublikamızın iqtisadi inkişaf modeli - istehsal və təsərrüfat subyektlərinin - coğrafi mənada ərazinin, sosial-iqtisadi mənada isə xalqın, millətin iqtisadi - sosial, psixoloji mənafelərini özündə əks etdirməlidir. Müstəqilliyin təmin olunması və qorunub saxlanması sivil bazar iqtisadiyyatı əsasında idarə olunan milli, iqtisadi-sosial tərəqqinin gələcək stateji məqsədlərindən bilavasitə asılıdır. Zəngin təbii ehtiyatları və iqtisadi imkanları olan respublikamız və müstəqil siyasət yürütməyimiz əsas verir ki, mövcud ehtiyatlardan səmərəli istifadə üçün hərtərəfli idarəçilik mexa-

nizmi yaradılsın və ölkənin iqtisadi qüdrəti artırılsın.

Artıq uzun zamandır SSRİ-nin dağılması, keçmiş müttəfiqlik rejiminin süqutu iqtisadi əlaqələrin qırılması ilə yanaşı, onun tərkibində olmuş respublikamızın iqtisadi inkişafında özünəməxsus əhəmiyyət kəsb edən Rusiya və Ukrayna bazarlarının itirilməsinə səbəb oldu. Sənayedə və kənd təsərrüfatında istehsalın ahəngdarlığı pozulmaqla, aqrar sahə məhsullarının satışında və təkrar istehsalında ciddi problemlər yaratdı. Həmçinin müstəqilliyin ilk illərindən Ermənistanın ölkəmizə təcavüzü nəticəsində Dağlıq Qarabağ və ona bitişik olan kənd təsərrüfatı əhəmiyyətli ərazilərin işğalı və respublikamıza bir milyondan artıq qaçqın və məcburi köçkünlərin gəlməsi vəziyyəti daha da gərginləşdirdi.

Məhz bu şəraitdə planlı sosialist iqtisadiyyatından qalmış kolxoz və sovxozlardan ibarət olan aqrar bölmə ölkənin potensial imkanlarından istifadə edə bilmədi. Dövlət idarəetmə orqanlarında boşluqların yaranması yerlərdə təsərrüfatsızlıq hallarının yaranmasına səbəb oldu. Odur ki, artıq müstəqillik əldə etmiş respublika olaraq kənd təsərrüfatında yeni iqtisadi şəraitə uyğun köklü islahatların aparılması, aqrar sahədə azad bazar sisteminin formalaşdırılması obyektiv zərurətə çevrildi.

Aqrar islahatlar əsasən ənənəvi təsərrüfatçılıq sisteminin azad bazar münasibətləri sistemi ilə əvəzlənməsi və aqrar sahənin liberal iqtisadiyyatın tələblərinə uyğun qurulmasına zəmin yaratmalıdır. Həmçinin, aqrar islahatlar ilk əvvəl dövlət mülkiyyətinin özəlləşdirilməsini, bu sahədə köklü struktur dəyişikliklər aparılmasını, yeni mülkiyyət münasibətlərinə uyğun çoxukladlı təsərrüfatların yaradılmasını, sahibkarlığın əlverişli inkişafını təmin edə biləcək hüquqi, təşkilati, iqtisadi və texniki şərait yaradılmasını, inhisarçılığın qarşısının alınmasını və sahələr arasında azad rəqabətin formalaşdırılmasını təmin etməyə yönəldilməlidir.

Aparılan təhlildən belə qənaətə gəlmək olur ki, aqrar sahədə sivil bazar münasibətlərinin tətbiq edilməsi ölkə iqtisadiyyatında iqtisadi problemlərin uğurlu həllinə şərait yaradan əsas amillərdən hesab edilə bilər. Müasir dövrdə aqrar - ərzaq bazarının təşkili və inkişaf etdirilməsinin başlıca məqsədi ölkə əhalisinin aztəminatlı, yoxsul, heç bir kommersiya gəlirləri əldə edə bilməyən bütün üzvlərinin işlə təminatı, həyat şəraitinin yaxşılaşdırılması və minimum yaşayış səviyyəsinin təmin edilməsinə xidmət etməkdir.

Aqrar sahədə müasir tələblərə cavab verən çevik texnologiyaların tətbiqi, xammalın əldə edilməsində davamlı təminatın əldə olunması və s. bu sahənin inkişafını şərtləndirən əsas amillərdir. Odur ki, mövcud təbii, əmək, texniki və texnoloji ehtiyatların aqrar-ərzaq bazarının tələblərinə uyğun istifadəsi bu sahədə həlli vacib sayılan bir sıra tədbirlərin həyata keçirilməsini zəruri edir.

Odur ki, bu sahədə emal müəssisələrinin mövcud və tələb olunan istehsal gücləri ilə təminatı səviyyəsi müəyyən edilməli, müəssisələrin texniki və texnoloji təchizat məsələlərinin həlli istiqamətində araşdırmalar aparılmalı, məqsədli proqramlar işlənib hazırlanmalı və həyata keçirilməlidir. Həmçinin müasir şəraitə uyğun olaraq müəssisələrin kadr potensialı ilə təmin edilməsi həyata keçirilməli, uyğun ixtisas və peşə sahibləri cəlb edilməlidir [8, s. 252-258].

Ölkəmizdə aqrar sahədə özəlləşdirmənin uğurla həyata keçirilməsi yolu ilə mülkiyyət forması dəyişdirilmiş, sahibkarlıq inkişaf etdirilmiş, sivil bazar münasibətlərinə əsaslanan sərbəst iqtisadiyyat əsasən bərqərar olmuşdur. Bu sahədə dünya təcrübəsi öyrənilmiş, aqrar münasibətlərə dair normativ-hüquqi baza yaradılmışdır. Kənd təsərrüfatı məhsulları istiqamətində istehsalın azalmasının qarşısının alınmasına və yeni mütərəqqi texnologiyaların tətbiqi hesabına xarici kapitalın respublikaya axınına şərait yaradılmışdır. Bu məqsədlə beynəlxalq təşkilatlarla ikitərəfli işgüzar əlaqələr yaradılmış, geniş əməkdaşlıq müqavilələri bağlanmışdır. Aqrar sahədə sahibkarlıga təkan verə biləcək bir çox beynəlxalq maliyyə-iqtisadi qurumlarla əməkdaşlıq mexanizmi yaradılmışdır.

Aqrar sahədə aqrar-ərzaq bazarlarının təşkili və idarə edilməsi sahəsində müəyyən çətinliklər mövcuddur. Bu sahədə fəaliyyət strukturu əksər hallarda vasitəçilik xarakterlidir. İstehsalçıların öz məhsullarını istehlakçılara çatdırılması istiqamətində müəyyən tədbirlər həyata keçirilsə də, hələ də həllini gözləyən xeyli problemlər mövcuddur.

Aqrar sahənin riskli olması baxımından sahibkarlar bu sahəyə investisiya qoymağa o qədər də

maraq göstərmirlər. Aqrar sahədə sahibkarlığın inkişafı, istehsal sahələrinin yüksək iş fəaliyyəti müasir infrastrukturların formalaşdırılmasını tələb edir. Ümumiyyətlə, sivil bazar münasibətləri şəraitində kənddə yaşayan əhalinin həyat səviyyəsinin yüksəldilməsi, sosial-istehsal infrastrukturların inkişaf etdirilməsi, onlara sərbəstlik verilməsi, iqtisadi islahatların daha da dərinləşdirilməsi vacibdir.

Aqrar sahədə fəaliyyət göstərən sahibkarlıq subyektləri istehsal etdikləri məhsulları daxili bazarlarda realizə etməklə kifayətlənməməli, həm də xarici bazarlara öz məhsullarını çıxarmağı bacarmalıdırlar. Odur ki, sahəyə xidmət göstərən infrastrukturların birgə fəaliyyət göstərməsi zəruridir.

Aqrar sahədə istehsalla məşğul olan müəssisələr stimullaşdırılmalı, onlar kommersiya fəaliyyəti ilə məşğul olan müəssisələrdən dövlət səviyyəsində fərqləndirilməli, onlara geniş imkanlar, lazımi güzəştlər verilməlidir.

Sadalananları ümumiləşdirərək belə nəticəyə gəlmək olur ki, aqrar sahədə sahibkarlığın inkişafı bilavasitə sahibkarlıq mühitindən asılıdır. Sahibkarlıq mühiti isə tərəflərin qarşılıqlı maraq fəaliyyəti ilə yanaşı, sahibkarlığa məxsus funksional əlaqələrin reallaşdırılmasını təmin edən müəyyən şərtlərin olmasını özündə birləşdirir.

Ölkəmizdə yeni münasibətlərin formalaşma mərhələsində dövlətin aparıcı rolu danılmazdır. Müstəqilliyin ilk illərində məlum obyektiv və subyektiv amillərin təsiri nəticəsində ölkəmiz çətinliklər məngənəsində olsa da, islahatların davamlı həyata keçirilməsi sivil bazar münasibətlərinin qismən də olsa formalaşmasını təmin edə bilmişdir.

Son illərdə sahibkarlara yaradılmış münbit şərait, özəl bölmənin iqtisadiyyatımızda xüsusi çəkisinin artmasına şərait yaratmaqla kiçik və orta sahibkarlığın inkişafına, onların istehsal imkanlarının artmasına səbəb olmuşdur. Əfsuslar olsun ki, bütün bunlara rəğmən hələ də bir sıra problemlər həll edilməmiş, onların həllinə ehtiyac duyulmaqdadır.

Sahibkarlığın möhkəm təməli - onun istehsal imkanları üçün normal himayəçilik şəraitinin yaradılması ilə sıx əlaqəlidir, bu isə milli iqtisadiyyatın inkişafı, qorunması və təhlükəsizliyi kimi aktual bir problemin hazırkı mərhələsi üçün zəruri hesab edilməlidir. [7, s.153-154]

**Aqrar sahəyə dövlət dəstəyinin artırılması**

Dünya təcrübəsində ərzaq problemlərini həll etmiş inkişaf etmiş ölkələrdə, kənd təsərrüfatı məhsulları istehsalına hərtərəfli və məqsədli maliyyə köməyi davam etdirilməkdədir. Bu nəinki əhaliyə lazım olan miqdarda məhsul istehsalına, paralel olaraq təbii-ekoloji mühitin qorunmasına, əhalinin kənd yerlərində davamlı məskunlaşmasına və s. yönəldilmiş bir siyasətdir. Odur ki, hər bir dövlət kənd təsərrüfatı ilə bağlı maliyyə siyasətinə vaxtaşırı nəzər salmalı və şəraitə uyğun olaraq dəyişikliklər aparmalıdır.

Aqrar sahənin iqtisadi-texnoloji və digər baxımdan tənzimlənməsi müxtəlif ölkələrdə fərqli olaraq həyata keçirilir. Belə ki, aqrar sahə və ərzaqla təminatın tənzimlənməsinə yönəlmiş yanaşmalar büdcə xərcləri tələb edirsə, digər tərəfdən bu məsələ əsasən inzibati tədbirlərlə reallaşır. Bu halda tənzimləmənin maliyyələşməsi müxtəlif mənbələr hesabına həyata keçirilir. Tənzimləyici tədbirlər əsasən vergi ödəyicilərinin, qalanlar isə alıcıların (istehlakçıların) hesabına maliyyələşir.

Kənd təsərrüfatına dövlət dəstəyi fərqli nəticələrə səbəb ola bilər. Bu dəstək (himayə) tədbirləri bəzi hallarda aqrar-ərzaq bazarında qiymətlərin təhrifi ilə, bəzən isə dünya bazarının konyunkturuna təsirlə nəticələnir.

Aparılan tədqiqatlar göstərir ki, aqrar sahə və ərzaq kompleksinə dövlət dəstəyi, bir çox hallarda ölkənin inkişaf səviyyəsindən asılı olmur. Bu zaman vəziyyəti tədqiq etmək üçün, ilkin olaraq o qədər də əhəmiyyətli sayılmayan amillər də təhlilə cəlb olunmalıdır. Aqrar sahəsi yüksək səviyyədə inkişaf etmiş ölkələrdə tənzimləmə təcrübəsi, dövlət himayəsinin səviyyəsi ciddi xronoloji və məntiqi təhlil aparılmaqla qiymətləndirilir.

Ölkələr özlərinə məxsus aqrar - ərzaq siyasətinə üstünlük verməyə çalışırlar. Yeni Zelandiyada liberal aqrar-ərzaq siyasəti həyata keçirilir, Yaponiyada kənd təsərrüfatına yüksək himayədarlıq göstərilməsinə rəğmən, əldə edilən nəticələrin müqayisəsi aqrar-ərzaq bazarında səmərəliliyin

kəmiyyətcə qiymətləndirilməsinə imkan vermir. Aydın olur ki, himayədarlıq siyasəti əldə edilən nəticələrin qiymətləndirməsini aparmaq üçün taktiki gedişləri də əhatə etməlidir.

Belə olan təqdirdə aqrar-ərzaq bazarına göstərilən dəstəyin səmərəli olması, ölkə daxilində və ya ölkələrarası miqyasda aqrar siyasətin dinamik təhlili məsələləri aktuallaşır. Bu mənada, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli “Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında” 759 nömrəli Fərmanının tam zamanında imzalandığını qeyd etmək lazımdır. Bu fərman ilə təsdiq edilmiş “Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması qaydası” ilə kənd təsərrüfatı məhsulları istehsalçılarına aşağıdakı subsidiyaların verilməsi nəzərdə tutulur:

- **əkin subsidiyası** - fermerlərə əkin və çoxillik əkmələrin altında olan torpaqlarda həmin torpaqların məqsədli təyinatına uyğun kənd təsərrüfatı bitkilərinin becərilməsi üçün istifadə etdikləri kənd təsərrüfatı istehsal vasitələrinin alınmasına, torpaqların aqrokimyəvi analizinin aparılmasına, çoxillik əkmələrdə müasir suvarma sistemlərinin və dirəklərin alınmasına, habelə qurulmasına sərf olunan xərclərin bir hissəsini kompensasiya etmək məqsədilə bitki becərilən sahənin hər hektarına görə verilən subsidiya;
- **məhsul subsidiyası** – tədarükçülərə təhvil verilən bitkiçilik məhsulunun hər tonuna görə verilən subsidiya;
- **toxum subsidiyası** – ölkədə istehsal edilən, sertifikatlı 1-ci və 2-ci reproduksiyalı toxum və tinglərin satışına görə verilən subsidiya;
- **heyvan subsidiyası** – yerli heyvanların cins tərkibinin yaxşılaşdırılması, yüksək məhsuldar genetik potensialı olan heyvanların baş sayının artırılması məqsədilə süni mayalanma və ya embrion köçürməsi yolu ilə alınan hər bir sağlam buzova görə verilən subsidiya;
- **arı subsidiyası** – hər arı ailəsinə (pətəyə) görə verilən subsidiya;
- **barama subsidiyası** – ölkədə istehsal edilib tədarükçülərə təhvil verilən yaş baramanın hər kiloqramına görə verilən subsidiya.

Yeni qaydaların tətbiqi kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyinin təkmilləşdirilməsinə və bu sahədə şəffaflığın artırılmasına imkan vermişdir. Qaydalarda bitkiçilik və heyvandarlıq üzrə nəzərdə tutulan subsidiya məbləğinin hesablanması aydın şəkildə öz əksini tapmışdır. Subsidiya növləri üzrə həmin məbləğin hesablanması üsulları aşağıdakı kimidir.

Əkin subsidiyasının məbləği aşağıdakı qaydada hesablanır:

baza məbləği × əkin əmsalı = əkin subsidiyası

Burada, bitkiçilik sahəsində subsidiyaların hesablanmasında istifadə olunan baza məbləği 200 (iki yüz) manat müəyyən edilmiş, əkin əmsalı isə – regionlar və bitkilər, vahid əkin sahələri, habelə əkin sahəsinin (sahələrinin) həcmi üzrə istehsalın dəstəklənməsi dərəcəsi nəzərə alınmaqla aqrar sahədə subsidiyaların tətbiqi ilə bağlı qərarları qəbul edən Şuranın müəyyən etdiyi göstəricidir.

İstifadəsində olan 50 hektardan çox torpaq sahəsində aparılan əkinə və ya çoxillik əkməyə görə kənd təsərrüfatı kooperativlərinə əkin subsidiyası 10 faiz artırılmaqla tətbiq edilir.

Məhsul subsidiyası aşağıdakı qaydada hesablanır:

baza məbləği × məhsul əmsalı = məhsul subsidiyası

Burada, məhsul əmsalı – bəzi bitkilər üzrə məhsuldarlığın təşviqi üçün Şuranın müəyyən etdiyi göstərici.

Toxum subsidiyası Şuranın müəyyən etdiyi bitki növləri üzrə ölkədə istehsal edilib satılmış 1-ci və 2-ci reproduksiyalı toxumların hər kiloqramına, tinglərin isə hər ədədinə görə baza məbləğinə əmsallar tətbiq edilməklə müəyyənləşdirilir:

(Baza məbləği x toxum əmsalı) x fermerin subsidiyaya təqdim etdiyi toxum və ya tingin miqdarı x (kvota / subsidiyaya təqdim olunan toxum və tingin miqdarının cəmi) = toxum subsidiyası.

Burada, toxum əmsalı – ölkədə istehsal edilən toxumun 1 kiloqramına və ya tingin 1 ədədinə görə subsidiya məbləğinin hesablanması üçün Şuranın müəyyən etdiyi göstəricidir.

Heyvan subsidiyası hər bir sağlam buzova görə 100 (yüz) manat məbləğində müəyyən edilir.

Arı subsidiyası arıçılıqla məşğul olan fermerlərə saxladıqları hər arı ailəsinə görə hər təqvim

ilində 10 (on) manat məbləğində müəyyən edilir.

Barama subsidiyası barama istehsalçısı olan fermerlərə istehsal edilib tədarükçüyə təhvil verilən yaş baramanın (əyrilən və karapaçax barama istisna olmaqla) hər kiloqramına görə 6 (altı) manat məbləğində verilir.

Fermerlərə subsidiyaların verilməsini (benefisiarlara ödənişlərin həyata keçirilməsi), habelə Nazirliyin dövlət aqrar inkişaf mərkəzlərinin (DAİM) bu sahədə fəaliyyətinin təşkilini və əlaqələndirilməsini Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi həyata keçirir. [2]

Aqrar sahəyə dövlət dəstəyinin artırılması istiqamətində növbəti addım Azərbaycan Prezidentinin 2022-ci il iyulun 9-da imzaladığı "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Fərman hesab edilə bilər. Bu fərmanla respublikamızda torpaq-iqlim potensialından və su ehtiyatlarından daha səmərəli istifadəni stimullaşdırmaq, ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsini yüksəltmək üçün yeni dəstək mexanizmi yaradılıb. İlkin mərhələdə pilot layihə olaraq, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə bağlanmış müqaviləyə əsasən müasir suvarma sistemlərinin tətbiq edildiyi təsərrüfatlarda ərzaqlıq buğda istehsalı ilə bağlı öhdəlik götürmüş şəxslər tərəfindən istehsal olunan və Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına (tədarükçülərə) təhvil verilən ərzaqlıq buğdaya 2023-cü ildən başlayaraq 5 il müddətində məhsul subsidiyasının ödənilməsinə başlanılıb. [3]

Bir sıra mənbələrdə ölkə daxilində aqrar sahəyə dövlət himayəsinin səviyyəsini müəyyən etmək məqsədi ilə çəkilən xərclərin qiymətləndirməsi təklif olunur. Aqrar sahədə tənzimlənmə prosesinə çəkilən xərclər əsasən mövcud hüquqi bazanın, onun həyata keçirilməsi mexanizminin təkmilləşdirilməsi ilə yanaşı, tənzimləyici tədbirlərə vəsait sərfini əhatə edir.

Lakin, tənzimləyici tədbirlərin nəticələrinin qiymətləndirməsində əsasən metodoloji və informasiya çətinlikləri yaranır. Bu şəraitdə aqrar istehsalda əldə edilən səmərəliliyin sahəyə dövlət müdaxiləsi hesabına əldə edildiyini müəyyən etmək əsas problem olaraq meydana çıxır. Odur ki, xərc metodunun aqrar sahəyə dövlət dəstəyinin səmərəliliyinin qiymətləndirilməsinə tətbiqinin tərəfdarları çoxluq təşkil edir.

Xərc metodu ilk baxışda, daxili ərzaq bazarının inzibati vasitələrlə qorumaq metodu ilə müqayisədə səmərəli görünmür. Məsələn deyək ki, ərzaqlara yüksək idxal tarifləri müəyyən edərək dövlət ölkəyə gətirilən kənd təsərrüfatı məhsullarına büdcədən vəsait ayırmır, əksinə, idxal tarifləri hesabına büdcəyə əlavə daxilolmalar baş verir. Nəticədə daxili bazarda ərzaq məhsullarının qiymət artımına səbəb olur, istehsalçılar yerli istehlakçılar hesabına əlavə gəlir əldə etmiş olur və s.

Bununla bərabər, dövlətin aqrar sahəyə himayəsinin iqtisadi və inzibati təsir vasitələri hesabına həyata keçirilməsi zamanı bəzi müsbət nəticələr əldə edilməsi məlum olsa da, islahatlar aparıldıqda hər bir yanaşma elmi araşdırma aparılmaqla əsaslandırılmalıdır.

Təcrübə göstərir ki, aqrar sahəyə büdcə ayırmalarının məbləğindəki artımlar əsaslandırılmamış inzibati tədbirlərlə müşayiət olunduqda paradoksal vəziyyət yaranır. Məsələn, ötən əsrin 90-cı illərinin birinci yarısında Rusiya Federasiyasının bir sıra subyektləri, istehsalı subsidiyalaşdırılan kənd təsərrüfatı məhsullarının digər subyektlərə aparılmasına qadağa qoymuşdular. Bu qisim tədbirlər nəticəsində yüksək büdcə xərcləri müqabilində kənd təsərrüfatı məhsullarının qiyməti onlara çəkilən xərclərdən də aşağı düşə bilər ki, bu da istehsalçıların maliyyə vəziyyətinin pisləşməsi deməkdir. [9, s. 323-328]

### *Nəticə*

Aqrar sahədə aparılan araşdırmalar və qabaqcıl təcrübədən istifadə, dövlət tənzimlənməsinin səviyyəsinin, miqyasının və digər iqtisadi göstəricilərinin təhlili və qiymətləndirməsi sahənin inkişafına öz müsbət təsirini göstərmişdir. Qeyd edilən göstəricilərin təhlili, kənd təsərrüfatı məhsulları istehsalının yerli və dünya bazarları ilə müqayisə edilməsinə və qiymətlərin tənzimlənməsinə şərait yaratmışdır.

Qeyd etmək lazımdır ki, ölkəmizdə aqrar sahəyə ayrılan subsidiyaların və güzəştlərin həcminin

ildən-ilə artırılması bu sahəyə daimi dövlət dəstəyinin mövcud olmasını təsdiq edir. Belə ki, sahəyə dövlət dəstəyinin həcmi 2007-2022-ci illər ərzində 10 dəfəyə yaxın artaraq 450 milyon manat təşkil etmişdir. Nəticədə, texnika parkının yenilənməsi və aqrotexniki xidmətlərə əlçatanlığın, toxum, gübrə və pestisid kimi istehsal vasitələri ilə təminat səviyyəsi yüksəlib, kənd təsərrüfatı sahəsinin infrastruktur və təchizat bazası genişlənib.

Aqrar sahəyə dövlət dəstəyini həyata keçirən aqrar siyasət kənd təsərrüfatı məhsullarının istehsalına əlverişli zəmin yaratmaqla yanaşı, zəruri resursların qiymətlərinin də tənzimlənməsinə xidmət göstərir. Resursların qiymətləri daxili bazarın (yerli aqrar istehsalçının) qorunmasına və aqrar-ərzaq bazarının səmərəli təşkilinə zəmin yaradır.

## ƏDƏBİYYAT


1. “Aqrar sahədə islahatların sürətləndirilməsinə dair bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 22 mart 1999-cu il tarixli Fərmanı. Azərbaycan qəzeti. Bakı, 1999.
2. “Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 27 iyun 2019-cu il. № 759.
3. “Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 19 iyul 2022-ci il.
4. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji yol Xəritəsi” Bakı, 2016-cı il.
5. Ataşov B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri / B.X.Ataşov. – Bakı: Elm və Təhsil – 2017. – 535 s.
6. Əhmədov G.Ə. Azərbaycanın aqrar sahəsində innovasiyanın mənimsənilməsi sisteminin yaradılması məsələləri (I hissə). Bakı: Nurlar, – 2006, – 125 s.
7. Hümbətov Y.Ə. İqtisadiyyata giriş. Dərs vəsaiti. / Y.Ə.Hümbətov, V.A.İsmayılov, F.C.Kərimov, S.C.Məmmədov – Bakı: Avropa nəşriyyatı, – 2020, – 239 s.
8. Hümbətov Y.Ə. Sənayenin təşkili və idarə edilməsi. Dərs vəsaiti. / Y.Ə.Hümbətov. – Bakı: Avropa nəşriyyatı, – 2018, – 355 s.
9. Серова Е.В. Аграрная экономика. М., 1999, 480 с.



***Хайям Натиг оглы Джавадзаде,***
***кандидат экономических наук, доцент***
***Азербайджанский Государственный***
***Экономический Университет***
***xayyam1984@mail.ru***


### Основные направления государственной поддержки аграрного сектора Азербайджанской Республики


***Резюме***

**Цель исследования -** изучить современное состояние государственной поддержки аграрного сектора, определить ее основные направления и существующие проблемы в этом направлении.

**Методология исследования -** анализ, системный подход, сравнительный анализ, методы обобщения.

**Важность исследования –** усиление государственной поддержки аграрного сектора и устранение существующих проблем в этом секторе позволяет обеспечить производство конкурентоспособной продукции.

**Результаты исследования -** результаты, полученные в ходе исследования, способны повысить информированность сельхозпроизводителей, пропагандировать важность использования ими государственной поддержки и, как следствие, создать стимул к увеличению производства.

**Оригинальность и научная новизна исследования -** всесторонне проанализированы основные направления государственной поддержки аграрного сектора и внесен конкретный вклад путем выявления существующих проблем, исследованы пути дальнейшего развития государственной поддержки и выдвинуты предложения в этом направлении.

***Ключевые слова: аграрные реформы, свободная конкурентная среда, аграрно-продовольственный рынок, аграрное предпринимательство, государственная поддержка.***

***Khayyam Natig Javadzade,***
***PhD in economics, associate professor***
***Azerbaijan State Economic University***
***xayyam1984@mail.ru***

## The main directions of state support to the agricultural sector in the Republic of Azerbaijan

***Summary***

The purpose of the research is – to investigate the current state of state support to the agricultural sector, to determine its main directions and existing problems in this direction.

Methodology of the research – analysis, systematic approach, comparative analysis, generalization methods were used during the research.

The importance of the research - increasing the state support to the agricultural sector and eliminating the existing problems in this sector can ensure the production of competitive products.

Results of the study – the results obtained in the study can increase the awareness of agricultural producers, promote the importance of their use of government support and, as a result, create an incentive to increase production.

The originality and scientific novelty of the research - the main directions of state support to the agricultural sector were comprehensively analyzed and concrete contributions were made by identifying existing problems, ways of further development of state support were investigated and proposals were put forward in this direction.

***Keywords: agrarian reforms, free competitive environment, agrarian - food market, agrarian entrepreneurship, state support.***